# Üçrəngli bayrağımız bu gün Azərbaycanın hər yerində dalğalanır

**Müstəqillik təkcə siyasi deyil, həm də sosial, iqtisadi və mədəni faktor olmaqla hər bir dövlətin tarixində əsas rol oynayır. Xalqın azad inkişaf və cəmiyyət quruculuğu hüququnu müəyyən edir, beynəlxalq aləmdə maraqlarının müdafiəsinə təminat verir. 107 il əvvəl - 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etdi. Bu, müsəlman Şərqində ilk demokratik respublika idi. Xalq Cümhuriyyəti cəmi 23 ay fəaliyyət göstərdi. Amma bu dövrdə xalqımızın milli şüuru, dövlətçilik ənənələri möhkəmləndi. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradıldı, dövlət atributları təsis olundu, sərhədləri müəyyən edildi, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirildi. Cümhuriyyətin beynəlxalq münasibətlər sisteminin subyekti kimi tanınması, diplomatik müstəvidə milli maraqların qorunması istiqamətində mühüm addımlar atıldı. Yeni fəaliyyətə başlamış parlamentin qəbul etdiyi qanunlar milli müstəqilliyin möhkəmləndirilməsində, ölkədə siyasi, iqtisadi və mədəni inkişafın təmin olunmasında, demokratik prinsiplərin təsbit edilməsində əsaslı rol oynadı.**

Müsəlman dünyasında ilk dəfə qadınlara seçmək və seçilmək hüququ verildi. Bu da o dövr üçün tarixi nailiyyət idi. Beləliklə, Xalq Cümhuriyyəti hökumətinin demokratik, hüquqi, dünyəvi dövlət yaratmaq əzmində olduğu növbəti dəfə təsdiqləndi.

Cümhuriyyətin süqutundan sonra 70 il Sovet rejiminin təzyiqləri belə Azərbaycan xalqının müstəqillik və azadlıq arzularını qıra bilmədi. XX əsrin sonlarında yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacardı. Tarixi varislik üzərində yeni müstəqil Azərbaycan dövləti quruldu. Amma bu proses asan olmadı. Yeni qurulmuş Azərbaycan Respublikası müstəqil dövlət kimi demokratik-hüquqi dövlət quruluşunu seçdiyini bəyan etsə də, XX əsrin sonlarının mürəkkəb ictimai-siyasi vəziyyəti səbəbindən Azərbaycan müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Belə bir şəraitdə görkəmli dövlət xadimi Heydər Əliyevin xalqın təkidi ilə Azərbaycanda yenidən hakimiyyətə gəlməsi ilə ölkəmiz müstəqil dövlət kimi varlığını qoruyub saxlaya bildi və inkişaf yolunu seçdi.

Ulu öndər Heydər Əliyev deyirdi: "Biz nadir bir irsin varisləyirik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır". Zaman göstərdi ki, müstəqilliyin əldə edilməsi mürəkkəb bir proses olsa da, onu qoruyub saxlamaq daha çətindir.

Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası hüquqi varis kimi bütün dövlətçilik ənənələrini, ən əsası öz ərazi bütövlüyü və suverenliyini bərpa etdi. Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımız bu gün Azərbaycanın hər yerində dalğalanır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin də söylədiyi kimi, Cümhuriyyət qurucuları sağ olsaydı, bugünkü Azərbaycanla fəxr edərdilər. Azərbaycanın belə güclü və qüdərtli dövlətə çevrilməsinin şahidi olduğumuz üçün biz çox xoşbəxt nəsilik.



Ötən illər ərzində atılmış hər bir addım və qəbul olunmuş hər bir qərar doğma Azərbaycan torpaqlarının işğaldan azad olunmasına xidmət edib. Bütün istiqamətlərdə qazanılan uğurların, əldə edilən nailiyyətlərin bir hədəfi var idi - işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi və Azərbaycanın bütün sərhədləri boyunca bayrağımızın dalğalanması ilə Xalq Cümhuriyyətinin varisi kimi bu gün Azərbaycan güclü ölkədir.

Təsadüfi deyil ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdikdən sonra - dövlətçilik tariximizdə müstəsna əhəmiyyətli mərhələlərin, xüsusən müstəqilliyin əldə edilməsi və bərpası kimi tarixi günlərin onların mahiyyətinə, məzmununa uyğun daha dəqiq ifadə olunması yönündə də addımlar atıldı. Belə ki, Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, 28 may Müstəqillik Günü, 18 oktyabr isə Müstəqilliyin Bərpası Günü kimi qeyd olunur.

Beynəlxalq münasibətlər sisteminin layiqli üzvü, qalib Azərbaycan bu gün inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyevin də söylədiyi kimi, müstəqil Azərbaycan dövləti dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda, istənilən nəticəni əldə etməyə qadirdir. Biz müzəffər xalq kimi böyük zəfərimizə layiq olmalıyıq. Müstəqilliyimizin əbədi-dönməz olması uğrunda səylərimizi daim səfərbər etməliyik.

**Nigar MƏMMƏDOVA,**
**Milli Məclisin deputatı.**

Respublika.- 2025.- 28 may (№110).-